Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

№ 39 (1167) 26 fevral - 27 fevral 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# ŞABRAN - İNKİŞAF VƏ TƏRƏQQİ YOLUNDA

**Bu gün Azərbaycanın bütün bölgələrində və əyalətlərində möhtəşəm abadlıq, quruculuq işləri həyata keçirilir. Belə rayonlardan biri də qədim və müasir Şabran rayonudur. Ona görə qədim deyirik ki, Şabranın çox zəngin və tarixi bir keçmişi vardır. Sanki bu gün rayonda tarixi keçmişlə müasirlik bir-birini tamamlayır və möhtəşəm bir şəhər nəzərə çarpır.**

> **"...Ərzaq təhlükəsizliyi ilə bağlı islahatlar aparılır, aqroparklar salınır, subsidiyaların verilməsi prosesi təkmilləşdirilir. Məhsuldarlığın artırılması prosesi də çox önəmlidir. Əminəm ki, biz yaxın gələcəkdə özümüzü bütün əsas ərzaq məhsullarımızla təmin edəcəyik".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

Əlbəttə, hər bir rayonda quruculuq və abadlıq işləri görülürsə, yeni sosial obyektlər, məktəblər, xəstəxanalar inşa edilirsə, bunlar hamısı insanlar üçün nəzərdə tutulur. Məhz bu məsələlər Şabran rayonunda da uzun müddətdir ki, diqqət mərkəzində saxlanılıb. Ölkə prezidenti cənab İlham Əliyevin qayğısı və köməkliyi nəticəsində rayonda son illər çox böyük abadlıq və quruculuq işləri gerçəkləşdirilib. Bir-birindən əzəmətli parklar və xiyabanlar salınıb, yeni-yeni sosial obyektlər, məktəblər, xəstəxanalar, uşaq bağçaları inşa edilib. Bütün bunlar onu göstərir ki, sözün həqiqi mənasında Şabran inkişaf və tərəqqi yolundadır.

Rayon icra hakimiyyəti başçısının müavini Fikrət Nuşiyev son illər görülən möhtəşəm abadlıq işlərindən böyük həvəslə söhbət açır. Deyir ki, hər şeydən yaxşısı o gözəllikləri özünüzün görməyinizdir. Biz də Fikrət müəllimin bələdçiliyi ilə bir-birindən gözəl parkları, xiyabanları və küçələri gəzirik. Xüsusən Heydər Əliyev parkı öz əzəməti və qeyri-adi görkəmi ilə seçilir. Daha doğrusu, burda əsl dincəlməli və istirahət etməli bir məkan mövcuddur. Fikrət Nuşiyev söhbətində qeyd edir ki, rayon icra hakimiyyətinin başçısı Novruz Novruzov prezidentə və dövlətçiliyə sədaqətli bir şəxsiyyətdir. O həm də gözəl bir ziyalı və yazıçıdır. Bu mənada Novruz müəllim böyük ürək sahibidir və həmişə də elin-obanın arasında olur, onları dinləyir və insanlarla sıx ünsiyyət yaradır. Təbii ki, başçının cəmiyyət arasında olması, insanlarla isti münasibət yaratması istər-istəməz əhalidə məmurlara qarşı müsbət münasibət yaradır.

Bir faktı da qeyd edək ki, sosial-iqtisadi inkişafa dair Dövlət Proqramı rayonda çox böyük vüsətlə icra edilir. Belə ki, 2015-ci ildə Şabran rayonunda çox uğurlu və yaddaqalan işlər görülüb. Rayon mərkəzi, kəndlər xeyli abadlaşdırılıb, sosial əhəmiyyətli bir çox vacib məsələlər öz həllini tapıb. Şəhərdaxili yolların çəkilişi, küçələrin işıqlandırılması, səliqə-səhman işləri daim diqqət mərkəzində olub. Başqa sözlə demiş olsaq, 2015-ci ildə rayonda 13,6 milyon manat həcmində tikinti-quruculuq işləri aparılıb. Bu da beş il bundan əvvəlkindən 1,5 milyon manat, yəni 18 faiz, on il əvvəlkindən isə 12 dəfə çoxdur. Şabran şəhərində dövlət büdcəsinin yeni xərcləri hesabına 4,2 kilometr uzunluğunda 9 küçəyə 23,1 min kv.m asfalt beton döşənib. Çoxmərtəbəli yaşayış binalarının əsaslı təmiri, dam örtüklərinin dəyişdirilməsi ötən il davam etdirilib. 12 mənzilli, 2 mərtəbəli üç yaşayış binasının dam örtüyü yenilənib, ikimərtəbəli 12 mənzilli iki yaşayış binası əsaslı təmir olunub, fasadlarına davamlı üzlük material çəkilib. Heydər Əliyev prospektində, M.Ə.Rəsulzadə, M.Nəzərov, Q.Qasımov, Ş.Vahabzadə küçələrində, Heydər Əliyev meydanında abadlıq işləri davam etdirilir.

Şəhərin cənub hissəsində yeni ərazilərin abadlaşdırılmasına başlanılıb. Güləmli yaşayış sahəsində beş nəfər Qarabağ müharibəsi əlili və şəhid ailəsi üçün fərdi yaşayış evləri tikilərək istifadəyə verilib. Rayonun daxili imkanları hesabına "Uşaq, gənclər istirahət əyləncə mərkəzi"nin tikintisi, Şəhidlər Xiyabanının yenidən qurulması işləri həyata keçirilir.

Fərəhli haldır ki, rayonun iqtisadiyyatında da yüksəliş vardır. Belə ki, məhsul buraxılışının ümumi həcmi 196,1 milyona çatıb. Sənaye məhsulunun istehsalı 9,4 faiz, kənd təsərrüfatı məhsulunun istehsalı 2,1 faiz artıb. Son on illə müqayisədə isə ümumi məhsul buraxılışının həcmi 6 dəfə, sənaye məhsulu istehsalı 9,5 faiz, kənd təsərrüfatı məhsulu istehsalı isə 4,5 faiz yüksəlib. Ötən ilin kənd təsərrfatı ili olduğunu nəzərə alsaq deməliyik ki, min hektarlarla torpaq sahələri Şabranda əlavə əkin dövriyyəsinə daxil edilib. Nəticədə kənd təsərrüfatı 6,6 faiz yüksəlib.

Əlbəttə, istər iqtisadiyyat, istər kənd təsərrüfatı, istərsə də elm, təhsil, mədəniyyət, səhiyyə sahələrində yüksəlişə nail olmaq şabranlılar üçün o qədər də asan olmayıb. Bunun üçün rayonda çox sağlam atmosfer yaradılıb və insanların qarşıya qoyulmuş məqsədə çatması üçün lazımi köməklik göstərilib. İlk növbədə hər bir Şabran sakini rayonun iqtisadi inkişafı üçün öz töhfəsini verməyə çalışıb.

Rayonda ötən il iki emal müəssisəsi olacaq iki bağçılıq, tərəvəzçilik təsərrüfatının yaradılması üçün Şabran, Əmirxanlı, Dəvəçi, Uzunboyad və Çölquşçu Bələdiyyələrinin ərazisindən və Dövlət Ehtiyat Fondundan 3,5 min hektar torpaq sahəsi seçilib. Təbii ki, bu seçim də ona görə edilib ki, həmin sahələrdə müəyyən inkişafa nail olunsun və mövcud problemlər zaman-zaman öz həllini tapsın.

"Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsi çərçivəsində Şabran rayonu ərazisində yeni suvarılacaq 14.922 hektar torpaq sahələri və su təminatı yaxşılaşdırılacaq torpaq sahələrinin layihələri hazırlanıb və həmin ərazilərdə torpaq mülkiyyətçiləri, icarədə olan torpaqlar, heyvandarlıq təsərrüfatları, tikililərin qeydiyyatı aparılır.

Ötən il əhalinin pul gəlirləri 104,2 milyon manat, adambaşına düşən pul gəlirləri 1821 manat, orta aylıq əmək haqqı 310,8 manat olub.

**Göründüyü kimi, Şabranda bütün sahələrin yüksələn xətlə inkişafı ona dəlalət edir ki, rayonda sosial-iqtisadi inkişafa dair Dövlət Proqramı nəzərdə tutulduğu kimi dəqiqliklə icra edilir və bu sahədə heç bir nöqsanlara yol verilmir, əksinə, rayonun bütün sahələrinin yüksəlişi və inkişafı üçün yeni yollar axtarılır və bu istiqamətdə çox uğurlu addımlar atılır.**

**(Ardı var)**





***FAİQ QİSMƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ